Mükafatın məqsədi elm, tədqiqat, innovasiya, elmi fəaliyyət və ixtiralar sahəsində çalışan şəxslərin beynəlxalq aləmdə tanıdılmasından ibarətdir.

Mükafatda elektrotexnika, mexanika və kimya mühəndisliyi, mülki mühəndislik, informasiya texnologiyası, bio və nano texnologiya, aviakosmik sənaye, tibb, bərpa olunan enerji və kənd təsərrüfatı sahəsində çalışan şəxslər iştirak edə bilərlər. Namizədlərin həyata keçirdikləri tədqiqat işləri aşağıdakı kateqoriyalardan birinə uyğun olmalıdır:

- ixtiralar;
- innovasiya;
- tətbiqi tədqiqat sahələri;
- fundamental tədqiqat sahələri;
- inkişaf üzrə tədqiqat sahələri.

İştirak etmək arzusunda olanlar 15 oktyabr 2009-cu il tarixinə qədər www.en.khwarizmi.ir internet səhifəsində müvafiq anketi dolduraraq qeydiyyatdan keçməlidirlər.

Tədbir barəsində daha ətraflı məlumatları www.en.khwarizmi.ir internet səhifəsindən əldə edə bilərsiniz.